Respublika.- 2021.- 20 mart.- S.

# Qələbəmiz şanlı zəfər tariximizdir

**Müasir Azərbaycan dövlətinin banisi, görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçiliyimizin qurulmasında, onun müstəqilliyinin qorunmasında və ölkəmizin beynəlxalq müstəvidə tanınmasında göstərdiyi müstəsna xidmətləri danılmazdır. Ümummilli liderimizin tarixin o ağır günlərində — xalqın tələbi və tam dəstəyi ilə 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həlli məqsədilə mötəbər hüquqi bazanın yaradılmasına, BMT və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair müvafiq qətnamələrin qəbul edilməsinə nail olması tarixi faktdır.**

Ömrünü Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına həsr edən, çıxışlarında daim "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən dahi şəxsiyyətin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətində "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" ifadələrini tarix qısa müddətdə sübut etdi. Məhz ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin son 17 il ərzində siyasi, iqtisadi, ordu quruculuğu sahəsində həyata keçirdiyi ciddi islahatlar, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində beynəlxalq sahədə gördüyü tədbirlər, müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa edilmiş və böyük zəfərin əldə edilməsi tarixə qızıl hərflərlə həkk olunmuşdur.

Azərbaycan Prezidenti dövlət başçıları ilə görüşlərində, nüfuzlu beynəlxalq təşkilatlarda çıxışlarında, xarici və ölkə informasiya agentliklərinə verdiyi çoxsaylı müsahibələrində Azərbaycanın prinsipial mövqeyini bəyan edərək bildirmişdir ki, Qarabağ problemi ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Çox təəssüf ki, dünyanın nüfuzlu təşkilatları, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri problemin sülh yolu ilə həll olunmasına sözdə təkid etsələr də, 30 il ərzində heç bir əməli addım atmadılar.

Cənab Prezidentin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində apardığı gərgin siyasətə kölgə salmağa çalışan ermənipərəst xarici dövlətlərin və bəzi beynəlxalq təşkilatların göstərdikləri bütün təzyiqlər və təhdidlərə mərdanə şəkildə sinə gərərək onları dəf etməsi, öz prinsipial mövqeyindən dönməməsi, cəsarət, qətiyyət və əzmkarlıq nümayiş etdirməsi böyük qələbəmizin əldə edilməsində danılmaz həqiqətdir. Ali Baş Komandan cənab İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı xalqımızı müqəddəs vətən torpağı uğrunda qələbəyə səsləyən rəhbər çağırışı oldu. Möhtərəm Prezident çıxışlarında daim demişdir ki, gün gələcək ki, Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Məhz cənab Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində işğalçı Ermənistan ordusunun hücumuna cavab olaraq ötən il sentyabrın 27-də əks-hücum əməliyyatının başlanması haqqında əmr verildi və 44 gün davam edən Vətən müharibəsində şanlı Azərbaycan ordusu mükəmməl və yüksək peşəkarlıqla hərbi əməliyyatlar keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək, ən müasir silahlardan istifadə etməklə, minimal itkilər verərək düşmənə sarsıdıcı zərbələr endirib tarixi Qələbə qazanaraq 300-ə yaxın kənd, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəklikləri işğalçılardan azad etdi, 3 rayonumuz isə bir güllə belə atmadan, şəhid vermədən siyasi yollarla geri qaytarıldı. Vətən müharibəsinin hər günündə ordumuz ancaq irəli getdi, mövqelərindən geri çəkilmədi. 44 gün davam edən döyüşlərdə cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçımızın ətrafında sıx birləşdiyini sübut etdi. Vətən müharibəsinin davam etdiyi müddətdə Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə isə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Ermənistanın və onun havadarlarının işğala əsaslanan planları alt-üst oldu. Xalqımızın birlik və güc simvoluna çevrilən "Dəmir yumruq" hərbi əməliyyatı mənfur düşmənin belini qırdı. Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyulmaqla tarixi ədalət bərpa olundu. Bununla da, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Bu ilin yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə möhtərəm Prezidentimiz son illər ərzində ölkəmizin hərtərəfli inkişafından danışarkən demişdir: "Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik".

Dövlətimizin başçısının çıxışında qeyd etdiyi kimi, xalq-Prezident-ordu birliyi tarixi torpaqlarımızın düşmən tapdağından azad edilməsində və ərazi bütövlüyümüzün bərpa olunmasında mühüm rol oynadı. Vətən mənsubiyyəti etnik çərçivələri aşaraq bütün Azərbaycan xalqını bir yumruq kimi birləşdirdi. 44 gün ərzində bir yumruq kimi birləşən xalqımız həm öz möhtəşəm birliyi ilə, həm də bu birlikdən qaynaqlanan gücü ilə, Ali Baş Komandanın ifadəsi ilə desək, düşmənin başını əzdi. Böyük tarixi qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Qarabağ döyüşlərində şəhid olan əsgər və zabitlərimizin, dinc insanların, yaralı qazilərimizin intiqamı alındı, onların qanı yerdə qalmadı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində Azərbaycan xalqı 44 günlük müharibədə Müzəffər Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşərək tariximizdə görünməmiş Qələbəni əldə etdi. Bu tarixi qələbədən sonra şəhid ailələrinə və sağlamlığını itirən qazilərimizə diqqət və qayğı, onların ailə-məişət şəraitinin yaxşılaşdırılması, mənfur düşməndən azad edilmiş torpaqlarımızda genişmiqyaslı quruculuq işlərinin aparılması, məcburi köçkün və qaçqınlarımızın öz əzəli dədə-baba torpaqlarına qayıdışı cənab Prezident tərəfindən dövlətin prioritet vəzifəsi kimi müəyyən edildi. Bunun bariz nümunəsidir ki, cari il fevral ayının 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimi təşkil edilmiş, müharibədən 4 ay keçməsinə baxmayaraq, Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün 30 bina, uşaq bağçası və 1200 şagird yerlik məktəbdən ibarət yeni yaşayış kompleksi istifadəyə verilmiş, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı olmuşdur. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilmiş, təkcə keçən il 1572 mənzil verilmişdir ki, bu da rekord göstərici sayılır. Bu il isə 3 minə yaxın mənzil verilməsi nəzərdə tutulmuşdur.

Həmin mərasimdə iştirak edən dövlətimizin başçısı İlham Əliyev çıxışında demişdir: "Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik".

Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi möhtərəm Prezidentimiz tərəfindən Azərbaycanın ən ali hərbi ordeni olan "Vətən Müharibəsi" ordeni, "Zəfər" ordeni, "Qarabağ" ordeni kimi yüksək orden və medallarla təltif edilmişlər.

Bu gün Azərbaycanın əldə etdiyi möhtəşəm Qələbə, Ali Baş Komandanın sərkərdəlik bacarığı və məharəti, mükəmməl diplomatik səyləri və bu sahədə atdığı addımlar, müasir dünyanın hərb tarixində nümayiş etdirdiyi yeniliklər dünya dövlətləri tərəfindən müsbət qiymətləndirilir və öyrənilir.

Hazırda dövlətimizin qarşısında duran əsas vəzifələrdən biri də, qısa müddət ərzində doğma torpaqlarından didərgin düşən həmvətənlərimizin öz yurdlarına qayıtması üçün işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsi prosesidir. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir və həmin torpaqlardan etdiyi çıxışları ilə qarşıda duran vəzifələrlə bağlı öz mesajlarını verir. Möhtərəm Prezidentimizin çıxışlarının birində dediyi kimi, "Biz zamanı qabaqlamalıyıq. Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın".

**Taryel ƏLƏKBƏROV,**
**Lənkəran rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**